*Gündən-günə inkişaf edən müstəqil Azərbaycan bu gün bütün sahələrdə böyük uğurlara imza atır. Sülhün, əmin-amanlığın tərəfdarı olan ölkəmiz dünya dövlətləri ilə dostluq münasibətləri qurur, əməkdaşlıq əlaqələrini genişləndirir, etibarlı tərəfdaş olaraq mühüm layihələrin gerçəkləşməsində yaxından iştirak edir. Regional və qlobal miqyasda keçirilən beynəlxalq tədbirlərə evsahibliyi edən Azərbaycan həm də dünyada idman ölkəsi kimi tanınır. Bunun əsasında isə ölkə başçımızın məqsədyönlü siyasəti dayanır.*

# Dünyanın möhtəşəm idman həyəcanı yenə BAKIDA



## Bu gün beynəlxalq səviyyəli Formula 1 yarışları başlayır

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində dinamik surətdə tərəqqi edən dövlətlərdən birinə çevrilən Azərbaycan həm də dünyada zəngin idman ənənələrinə malik, idmanın sürətlə inkişaf etdiyi ölkə kimi qəbul edilir. Son dövrlərdə ölkəmizin iqtisadi inkişafına, artan maliyyə imkanlarına uyğun olaraq idmanın maddi-texniki bazası möhkəmləndirilmiş, gənc nəslin sağlam ruhda tərbiyəsinə, respublikamızda idmanın kütləviləşməsinə xidmət edən mühüm islahatlar həyata keçirilmişdir. Müxtəlif idman növləri üzrə beynəlxalq yarışların iştirakçısı, eyni zamanda təşkilatçısı olan, irimiqyaslı idman tədbirlərinə evsahibliyi edən ölkəmizdə dünya və Avropa çempionatlarının təşkil olunması dövlətimizin bu sahəyə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Son illərdə ölkəmizdə saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilmişdir. Belə ki, bədii gimnastika, güləş və boks üzrə dünya çempionatlarının, habelə futbol üzrə qadınlar arasında dünya çempionatının, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, XV Avropa Gənclər Yay Olimpiya Festivalı, Formula 1 yarışları, dünya və Avropa çempionatlarının təşkili bunun əyani sübutudur.

2016-cı ildə Bakı dünyanın ən aparıcı avtoidman yarışı olan Formula 1-ə evsahibliyi etdi. **"Yarışın Azərbaycanda keçirilməsi bizim tarixi nailiyyətimizdir, bu yarış bir daha Azərbaycanın gücünü göstərdi"** - deyən və Formula 1 yarışlarına böyük maraq göstərən Prezident İlham Əliyev çıxışlarının birində yarışın ölkəmizə gətirəcəyi nailiyyətlərdən danışaraq demişdir: "20 inkişaf etmiş şəhərdə keçirilən Formula 1 üçün Bakı 21-ci şəhər oldu. İnanırıq ki, bu yarış, Azərbaycanın turizm potensialının inkişafında xüsusi rol oynayacaq və ölkəmiz turizm mərkəzinə çevriləcəkdir. Müşahidələr göstərir ki, Bakıya gələnlərin, şəhərimizi, ölkəmizi tanıyanların sayı artır".

2016-cı ilin yayında Azərbaycana Formula 1 yarışlarını izləməyə tək ərəb ölkələrindən on minlərlə turist gəlmişdi ki, bu da Azərbaycanda başda turizm sektoru olmaqla, iqtisadiyyatın turizmlə bağlı müxtəlif sahələrində canlanma yaratmışdı. Çünki Formula 1 azarkeşləri arasında böyük beynəlxalq şirkətlərin rəhbərləri yarışı izləməyə gəldikləri Bakının biznes imkanları ilə yaxından tanış olmuş, bu da ölkədə xarici investisiya qoyuluşuna öz töhfəsini vermişdi.

Bir nəfərlik, açıq təkərli avtomobillərin yarışı olan Formula 1 üzrə dünya çempionatının səkkizinci - Azərbaycan Qran-Pri yarışlarına 2017-ci ilin 23 iyununda start verildi. 10 komandadan 21 pilotun birincilik uğrunda mübarizə apardığı yarışda Bakı şəhər halqasında dünyanın ən məşhur pilotları - Luis Hamilton, Fernando Alonso, Sebastian Fettel, Valtteri Bottas və digərləri yarışmışlar. Bütün dünya yarışlarla bərabər, eyni zamanda qədim tarixi mədəniyyət abidəmiz olan İçərişəhəri, paytaxtımızın müasir memarlıq abidələrini, tarixiliklə müasirliyin vəhdətində gündən-günə gözəlləşən Bakımızı da seyr etmişlər.

İyunun 23-də Formula 1 və Formula 2 üzrə sərbəst yürüşlər təşkil olunmuş, iyunun 24-də Formula 1 üzrə sərbəst və sıralama yürüşü, Formula 2 üzrə isə birinci yarış keçirilmiş, sonuncu gün - iyunun 25-də isə Azərbaycan Qran-Pri yarışları, həmçinin Formula 2 üzrə ikinci yürüş baş tutmuşdur.

2018-ci il aprel ayının 27-də Bakıda Formula 1 üzrə dünya çempionatının dördüncü - Azərbaycan Qran-Pri yarışlarına start verilmiş, Bakı şəhər halqasında dünyanın ən məşhur pilotları - Luis Hamilton, Fernando Alonso, Sebastian Fettel, Valtteri Bottas və digərləri birincilik uğrunda mübarizə aparmışlar. 10 komandadan 20 pilotun birincilik uğrunda mübarizə apardığı yarışı ümumilikdə 30 minə yaxın tamaşaçı canlı olaraq izləmiş, yarışların start və finiş xətləri Azadlıq meydanında olmuşdur.

Aprelin 27-də Formula 1 və Formula 2 üzrə sərbəst yürüşlər təşkil olunmuş, aprelin 28-də Formula 1 üzrə sərbəst və sıralama yürüşü, Formula 2 üzrə isə birinci yarış keçirilmişdir. Çempionatın sonuncu günü - aprelin 29-da Azərbaycan Qran-Prisi, həmçinin Formula 2 üzrə ikinci yürüş baş tutmuşdur.

2019-cu il aprelin 28-də Bakı şəhər halqasında start götürən Formula 1 SOCAR Azərbaycan Qran-Prisində 10 komandanı təmsil edən 20 pilot trekdə 51 dövrə vurub. Bakıda keçirilmiş üç Qran-Pridən sonra pilotların yarışına 44 xalla "Mercedes"in pilotu Valtteri Bottas liderlik etmişdir. Komanda yoldaşı Luis Hamilton ondan 1 xal geri qalmış, "Red Bull Racing"in hollandiyalı pilotu Maks Ferstappen 27 xalla üçüncü, "Ferrari"nin Monakodan olan sürücüsü Şarl Lekler isə 26 xalla dördüncü pillədə qərarlaşmışdır. Konstruktorların yarışında isə "Mercedes" komandası 130 xalla birinci sıradadır. İkinci yerdə qərarlaşan "Ferrari" komandası 73 xalla ikinci, "Red Bull Racing Honda"nın 52 xalla üçüncü yerdə qərarlaşmışdır.

Bir qayda olaraq hər il keçirilən Formula 1 yarışları 2020-ci ildə dünyanı bürüyən COVID-19 pandemiyası səbəbindən keçirilməmiş, növbəti yarış - Formula 1 üzrə dünya çempionatının altıncı - Azərbaycan Qran-Pri yarışlarına 2021-ci il iyun ayının 4-də start verilmişdir. 10 komandadan 20 pilotun birincilik uğrunda mübarizə aparacağı yarış trekinin uzunluğu 6 kilometr olmuşdur.

İyun ayının 4-də Formula 1 və Formula 2 üzrə sərbəst yürüşlər təşkil olunmuş, iyunun 5-də Formula 1 üzrə sərbəst və sıralama yürüşü, Formula 2 üzrə isə birinci yarış keçirilmiş, iyunun 6-da isə Formula 1 Azərbaycan Qran-Prisi, həmçinin Formula 2 üzrə ikinci yürüş baş tutmuşdur.

Bu gün Bakı daha bir dünya səviyyəli yarışa - Formula 1 2022 yarışlarına evsahibliyi edir. İdman tarixinin ən əlamətdar yarışlarına qapılarını açmış Azərbaycanda artıq daha bir çoşqulu, həyəcanlı sevincli oyunlar keçirilir. 6-cı dəfə ölkəmizdə keçirilən Formula 1 yarışlarına Bakının yenidən öz qapılarını açması, bu heyrətamiz yarışla bərabər gözəl şəhərimizi dünyaya nümayiş etdirməsi hər birimizdə qürur doğurur. Axı, bütün bunlar ölkəmizin, gündən-günə gözəlləşən, inkişaf edən Bakımızın qonaqpərvər, bütün xalqların sülh, əmin-amanlıq şəraitində birgə yaşadığı məkan olmaqla bərabər, həm də bölgədə etibarlı tərəfdaş, güclü potensiala malik bir dövlət olmasına dəlalət edir.

Beynəlxalq idman oyunlarına və turnirlərə yüksək səviyyədə evsahibliyi etməsi ölkəmizdə idmana göstərilən diqqət və qayğının göstəricisidir. Regionun lider dövlətinə çevrilən Azərbaycanın sürətli inkişafı, beynəlxalq aləmdə nüfuz qazanması, dünya birliyində tutduğu mövqe dövlətimizin idman siyasətinə mühüm töhfə verir. Azərbaycanın artan beynəlxalq nüfuzu sayəsində hər il ölkəmizdə keçirilən beynəlxalq səviyyəli müxtəlif idman yarışları Azərbaycanın idman ölkəsi olmasını bir daha sübut edir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**